# Nəsimi yaradıcılığında ədəbi dil aspekti

**Dos. Nabat Cəfərova**
**ADPU, Azərbaycan dili və onun**
**tədrisi texnologiyası kafedrası**
**Cafarova_nabat@mail.ru**

**Xülasə**

Məqalədə Azərbaycan ədəbi dilinin inkişafında Nəsimi yaradıcılığının rolundan bəhs edilir. İmadəddin Nəsimi ana dilində gözəl şeirlər yazan qüdrətli söz üstadı olmuşdur. İmadəddin Nəsimi öz yaradıcılığında Azərbaycan dilindən müntəzəm şəkildə istifadə etmiş, Azərbaycan dilinin ən gözəl nümunələri Nəsimi yaradıcılığının, Nəsimi dilinin əsasını təşkil etmişdir. Azərbaycan xalqının zəngin lüğət tərkibi, söz, ifadə və cümlələr, obrazlı ifadə vasitələri Nəsimi yaradıcılığının daxili ilham çeşməsi olmuşdur. O, xalqının doğma dilindən bəhrələnmiş, onu daha da inkişaf etdirmişdir. Nəsimi yaradıcılığı və dili özündən sonra yeni bir məktəbin yaranmasına səbəb olmuşdur. İ.Nəsimi dilinin üstünlüyü onun yaradıcılığının canlı xalq dilində işlənən söz ehtiyatları, şifahi xalq ədəbiyyatı nümunələri üzərində qurulmaşıdır.

Klassik ədəbiyyatın tədqiqində İmadəddin Nəsimi yaradıcılığı iki istiqamətdə öyrənilir:

1) şairin sənət qüdrətinin, milli dilin poetik potensialından istifadə bacarığının tədqiqi;
2) şairin şeir dili fonunda dövrün ədəbi dilinin inkişaf və formalaşma səviyyəsinin müəyyənləşdirilməsi (4, s.4).

İ.Nəsimi yaşadığı dövrdə Azərbaycan dilinin milli zəmində yüksəlməsinə çalışmışdır. Nəsimi ana dilini ərəb və fars dilləri ilə yanaşı işlətmiş, bununla da, Azərbaycan dilini ərəb və fars dilləri ilə canlı rəqabətə qoşmuşdur. Şair öz bədii yaradıcılığı ilə sübut etmişdir ki, Azərbaycan dili şeir dilidir və bu dildə bədii cəhətdən yüksək poetik şeirlər yazmaq mümkündür.

Şair Azərbaycan dilində işlənən söz və ifadələri böyük ustalıqla ədəbi dilə gətirmişdir. Şair ana dilini, xalqın poetik təfəkkürünü inkişaf etdirərək elə bir söz xəzinəsi yaratmışdır ki, onun mənəvi dəyəri əsrlər keçdikcə daha da artmaqdadır. Zaman-zaman İ.Nəsiminin dili, elmi-fəlsəfi görüşləri, tarixi baxışları müxtəlif yaradıcılıq aspektindən öyrənildikcə, öyrənilir və hələ çox öyrəniləcəkdir.

Şairin dili Azərbaycan ədəbi dilinin bütün istiqamətlərini özündə əks etdirən klassik ədəbi dildir. Nəsiminin əsərlərinin dilini tədqiq edən alimlər (V.Aslanov, Y.Seyidov, T.Hacıyev və b.) onu Azərbaycan dilinin kamil nümunələrindən hesab edirlər.

Dünya mədəniyyət tarixində, klassik ədəbiyyat tarixində mühüm yer tutan istedadlı Azərbaycan şairinin 2019-cu ildə 650 illik yubileyinin təntənəli şəkildə keçirilməsi və həmin ilin dövlət səviyyəsində İ.Nəsimi ili kimi qeyd olunması tanınmış mütəfəkkirə böyük dəyərin göstəricisidir.
**Açar sözlər:** klassik, şair, yaradıcılıq, ədəbi dil, aspekt

## Literary language aspect in nasimi's creativity

**Dos. Nabat Jafarova**

### Summary

The article examines the role of Nasimi's creativity in the development of the Azerbaijani literary language. Imadeddin Nasimi was a powerful poet who wrote beautiful poetry in his own language. Imadaddin Nasimi regularly used the Azerbaijani language in his work, the finest examples of the Azerbaijani language formed the basis of Nasimi's work, the Nasimi language. The rich vocabulary, words, expressions and sentences, figurative means of expression of the Azerbaijani people were the inner source of inspiration for Nasimi's work. He took advantage of the native language of his people and developed it further. Nasimi's creativity and language led to the creation of a new school. The advantage of the language of I. Nasimi is that his work is based on the vocabulary and samples of oral folk literature used in a living folk language.

When studying classical literature, the work of Imadaddin Nasimi is studied in two directions:

1) the study of the artistic power of the poet, his ability to use the poetic potential of the national language;

2) determine the level of development and formation of the literary language of the era against the background of the poet's poetic language (4, p. 4).

During his lifetime, I. Nasimi managed to ensure the rise of the Azerbaijani language at the national level. Nasimi used his mother tongue alongside Arabic and Persian, thus placing Azerbaijani in a lively competition with Arabic and Persian. The poet, with his artistic creativity, proved that the Azerbaijani language is the language of poetry and that highly poetic poems can be written in this language.

The poet masterfully expressed the words and expressions of the Azerbaijani language. Developing the native language and poetic thinking of the people, the poet created such a vocabulary, the spiritual significance of which has grown for centuries. From time to time, the language, scientific and philosophical views, and the historical views of I. Nasimi from different creative sides are studied and will be studied.

The poet's language is a classical literary language, reflecting all aspects of the Azerbaijani literary language. Scientists who study the language of Nasimi's works (V. Aslanov, Yu. Seyidov, T. Hajiyev, etc.) consider him one of the most beautiful examples of the Azerbaijani language.

The solemn celebration of the 650th anniversary of the talented Azerbaijani poet in 2019, which occupies an important place in the history of world culture and the history of classical literature, and the celebration of this year at the state level as the year of I. Nasimi is an indicator of great value for the famous thinker.

**Key words:** classic, poet, creativity, literary language, aspect

## Литературно-языковый аспект в творчестве Насими

**Дос.Набат Джафарова**

### Резюме

В статье рассматривается роль творчества Насими в развитии Азербайджанского литературного языка. Имадеддин Насими был могущественным поэтом, который писал прекрасные стихи на своем родном языке. Имадеддин Насими регулярно использовал в своем творчестве Азербайджанский язык, прекраснейшие образцы Азербайджанского языка легли в основу творчества Насими, язык Насими. Богатый словарный запас, слова, выражения и предложения, образные средства выражения Азербайджанского народа были внутренним источником вдохновения для творчества Насими. Он извлек пользу из родного языка своего народа и развил его дальше. Творчество и язык Насими привели к созданию новой школы. Преимущество языка И. Насими в том, что его творчество основано на лексике и образцах устной народной литературы, употребляемой на живом народном языке.

При изучении классической литературы творчество Имадеддина Насими изучается по двум направлениям:

1) изучение художественной силы поэта, его умения использовать поэтический потенциал национального языка;

2) определить уровень развития и сформированности литературного языка эпохи на фоне поэтического языка поэта (4, с.4).

При жизни И.Насими удалось обеспечить подъем Азербайджанского языка на национальном уровне. Насими использовал свой родной язык наряду с арабским и персидским, тем самым поставив Азербайджанский язык в живое соревнование с арабским и персидским. Поэт своим

художественным творчеством доказал, что азербайджанский язык является языком поэзии и на этом языке можно писать высокопоэтические стихи.

Поэт мастерски выразил слова и выражения азербайджанского языка. Развивая родной язык и поэтическое мышление народа, поэт создал такой словарный запас, духовное значение которого росло веками. Время от времени изучаются и будут изучаться язык, научные и философские взгляды, исторические взгляды И.Насими с разных творческих сторон.

Язык поэта - классический литературный язык, отражающий все аспекты Азербайджанского литературного языка. Ученые, изучающие язык произведений Насими (В.Асланов, Ю.Сеидов, Т.Гаджиев и др.), считают его одним из прекрасных образцов Азербайджанского языка.

Торжественное празднование 650-летия талантливого азербайджанского поэта в 2019 году, которое занимает важное место в истории мировой культуры и истории классической литературы, и празднование этого года на государственном уровне как года И. Насими является показателем огромной ценности для известного мыслителя.

**Ключевые слова:** классик, поэт, творчество, литературный язык, аспект

**Annotasiya**. İmdəddin Nəsimi yaradıcılığı Azərbaycan dilinin qədim köklərə malik bir dil olduğunu əks etdirir. Azərbaycan dili uzun müddət yaşayan, öz lüğətini və bədii xüsusiyyətlərini, gözəlliyini itirməyən bir dildir.

İ.Nəsimi yaşadığı dövrdə Azərbaycan dilinin milli zəmin üzərində yüksəlməsini təmin etməyə müvəffəq olmuşdur. Nəsiminin Azərbaycan ədəbiyyatı tarixində ən böyük xidməti-Azərbaycan dilində fəlsəfi mənalı poeziya nümunələri yaratmasıdır.Nəsimi Azərbaycan dilindən mütəmadi olaraq istifadə etmişdir. Nəsimi yaradıcılığında işlənən təbiət hadisələri, rəqəmlər, əfsanələr, tarixi şəxs adları, qəbilə, nəsil toponimləri bir tərəfdən tarixi, elmi-fəlsəfi məlumatların verilməsi üçün istifadə edilirsə, digər tərəfdən ədəbi dilin zənginləşməsinə kömək edir.

**Aktuallıq.** Azərbaycan ədəbiyyatının, o cümlədən klassik ədəbiyyatın dil və üslub xüsusiyyətlərinin araşdırılması müasir dövrün problematik məsələlərindən biridir. Bu baxımdan, böyük Azərbaycan filosofu, şairi İmadəddin Nəsimi yaradıcılığının araşdırılması bu gün də aktualdır.

Nəsimi yaradıcılığının dilçilik baxımından tədqiqi Azərbaycan dilinin tarixi inkişaf baxımından öyrənilməsi üçün də çox dəyərlidir.

Azərbaycan ədəbi dilinin formalaşmasında böyük əməyi olan İmadəddin Nəsimi yaradıcılığının ədəbi-bədii, dil təhlili ədəbi dilin tarixi leksikologiyasının tədqiqat obyekti kimi zaman-zaman öyrənilir və öyrənildikcə daha incə məqamlar üzə çıxarılır.

İmadəddin Nəsiminin, o cümlədən klassiklərin əsərlərinin dilçilik aspektindən tədqiqi və təhlili Azərbaycan dilinin zənginliyinin qüdrətini və yeni çalarlarının üzə çıxarılmasını əsaslandırır. Filosof-şair İmadəddin Nəsiminin Azərbaycan ədəbi dil tarixində mühüm mövqeyi vardır və Nəsimi yaradıcılığının mükəmməl araşdırılması olduqca əhəmiyyətlidir.

**Tədqiqat işinin metodları:** Məqalədə, əsasən, təsviri, müqayisəli-qarşılaşdırma metodu, müqayisəli-tarixi metodlardan istifadə edilmişdir.

**Giriş:**

İmadəddin Nəsimi Azərbaycan dilinin fədaisi olaraq ana dilindən öz poeziyasında çox geniş şəkildə istifadə etmişdir. Şair Azərbaycan dilinin bütün incəliklərinə yiyələnmiş, xalqın ən gözəl incilərinin yer aldığı şifahi xalq ədəbiyyatına əsaslanmış və özündən sonra gələn xələflərinə bu dildən istifadə üçün əlverişli şərait yaratmışdır.

İ.Nəsiminin əsərləri əsasında Azərbaycan dilinin bəzi nəzəri məsələlərinin araşdırılması bu gün də davam edir və şairin dili Azərbaycan ədəbi dilinin zənginləşdirilməsi vasitəsi kimi səciyyələndirilir.

Professor Y.Seyidov qeyd edirdi ki, "Nəsimi şeirində XIV əsr Azərbaycan türk dili dövrün mədəni tələblərinə cavab verən hər şeyə malik idi. Onun materialı da, mexanizmi də şeir dili, bir ədəbi dil nümunəsi kimi, öz əsasını burdan alır, digər tərəfdən özündən əvvəl gələn, ədəbi-bədii dil ənənlərindən qidalanırdı. Ona görə də, Nəsimi dilinin elmi-tarixi baxımdan tədqiqi şairin dil və üslub dairəsindən çıxıb dövrün ədəbi dilini öyrənmək üçün tarixi yazılı abidə rolu oynayır" [4, s.12].

Şairin ideya-fəlsəfi görüşlərinin bədii rəmzlər, dil vasitələri ilə təcəssüm tapdığını dil tarixinin öyrənilməsi baxımından şərh etmək lazımdır.

Nəsiminin çətin anlaşılan tarixi, əfsanəvi rəvayətlərdən gələn söz və ifadələrinin mənası izah olunmadan, onların bədii, məcazi mənaları, xarakteri, rolu aydınlaşdırılmadan təqdim olunması yanlış fikirlərin yaranmasına səbəb olardı.

Şairin "Məndə sığar iki cahan" adlı məşhur qəzəlinin mənasının xırdalıqları o qədər çoxdur ki, bunların hər birinin izahı dərin bilik, Nəsimi yaradıcılığına böyük məhəbbət və diqqət tələb edir:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam.
Gövhəri-laməkan mənəm, kövni məkana sığmazam.

Şair burada insanın mənəvi və cismani dünyasını nəzərə almışdır, yəni insan real həyatda olmadığı zaman da yaratdıqları ilə əbədi olaraq qalır.

Nəsimi yaradıcılığında işlənən hər bir söz, hər bir ifadə dərin məna kəsb etməklə yanaşı, fundamental təqiqatların əsasını təşkil edir. İ.Nəsiminin əsərlərində işlənən tarixi faktlar, şəxs adları, yer adları, təbiət hadisələri,

rəqəmlər, əfsanələr və s. həm tarixi, elmi-fəlsəfi məlumatların verilməsinə, həm də Azərbaycan ədəbi dilin zənginləşməsinə kömək edir.

Q.Quliyeva yazırdı: "Nəsimi dilinin semantikasından danışarkən, ziddiyyət yaradan antonimlərdən zəngin şəkildə istifadə edilməsi diqqəti cəlb edir. Şair həm ana dili sözlərindən, həm də alınma sözlərdən məharətlə istifadə etməklə aydın və sərrast təzad yaratmışdır" [3, s.22 -23].

Nəsimi haqqında Avropa alimlərinin də fikirləri maraqlıdır. Bunlara alman şərqşünası Hammer, Borili (Amerika), Cibb və b. daxildir. Cibb Avropada Nəsiminin yaradıcılığı ilə ətraflı şəkildə tanış olmuş və onun dili ilə bağlı bir sıra tədqiqat işləri aparmışdır. Həmçinin, Nəsimi yaradıcılığı ilə ətraflı məşğul olan alimlərdən biri də italyan alimi Bombaçi olmuşdur. O, 1956-cı ildə Milanda "Türk ədəbiyyatı tarixi" adlı əsərində Nəsimi yaradıcılığına xüsusi bölmə ayırmış, onun dili və lirikasına aid gözəl nümunələr vermişdir.

Şair İmadəddin Nəsimi yaradıcılığı Türk dünyasının da diqqət mərkəzində olmuşdur. Nəsiminin dilini tədqiq edən sənətkarlardan biri də A.Köprülüzadə olmuşdur. O, Nəsimini "qüvvətli iman sahibi" adlandırmış, bir neçə qəzəlini tərcümə və nəşr etmişdir.

XV əsrin türk şairi Rəfii öz "Bəşarətnamə" əsərində Nəsimi yaradıcılığını araşdırmış və onun dilə bəslədiyi münasibətdən söz açmışdır.

Beləliklə, Nəsimi bir azərbaycanlı kimi öz fəlsəfi-ictimai əqidəsi ilə "iki cahana sığmayan" bir şəxsiyyət olduğunu sübut etmişdir. Həqiqət uğrunda mübarizəsi ilə könüllərdə yüksələn Nəsimi yaradıcılığı Azərbaycan dilinin qədim köklərə malik bir dil olduğunu əks etdirir. Sənətkarın Azərbaycan dili uğrunda apardığı mübarizə onu bu müqəddəs yolun şeyxi etdiyinə görə Övliya Çələbi şairi "Şeyx Nəsimi" adlandırmışdır.

**Nəticə:**

İ.Nəsimi fəlsəfi əsərləri ilə öz simasını əsrlərlə qoruyub saxlayan qüdrətli söz ustadıdır. O, qlobal dünya mədəniyyəti tarixində iz qoymuş və xarici ölkələrdə də əsərləri tədqiq olunan sənətkardır.

İ.Nəsimi Azərbaycan dilində işlənən söz və ifadələri yaradıcılığına gətirməklə Azərbaycan ədəbi dilini zənginləşdirmiş, ana dilimizi milli zəmində yüksəltmişdir.

Nəsimi həm ana dilində, həm də ərəb və fars dillərində yazmış, lakin Azərbaycan dilini həmin dillərdən yüksək tutmuşdur. Şair öz yaradıcılığı ilə diktə etmişdir ki, Azərbaycan dili şeir dilidir, bu dildə yüksək dəyərə malik şeirlər yazmaq mümkündür.

Nəsimi dilinin qüdrəti onun canlı xalq dilinə söykənməsidir, ana dilinin lüğət ehtiyatından istifadə etməsidir. Odur ki, şairin yaradıcılığı xalq tərəfindən hər zaman sevilir.

İ.Nəsiminin yaradıcılığının ədəbi dil aspektini əks etdirən elmi tədqiqat işlərinə Ə.Dəmirçizadənin "Azərbaycan ədəbi dili tarixində Nəsiminin mövqeyi"; A.Məmmədinin "Ədəbi dilimizin zənginləşməsində Nəsiminin rolu"; V.Aslanovun "Nəsimi dili haqqında bəzi qeydlər"; Ş.Cəmşidovun "Nəsimi şerlərində Dədə Qorqud ifadələri"; Y.Seyidovun "Nəsimi əsərləri Azərbaycan ədəbi dilinin tarixi abidəsi kimi"; C.Qəhrəmanov "Nəsimi dilinin leksikası"; Q.Quliyevanın "Nəsimi dilinin semantik xüsusiyyətləri" adlı məqalə və əsərlərini göstərmək olar.

Professor Y.Seyidov 1996-cı ildə nəşr etdirdiyi "Nəsiminin dili" adlı əsərində İ.Nəsiminin dilini tədqiq edərək, onun Azərbaycan ədəbi dilinin inkişafında olan xidmətlərini yüksək dəyərləndirmişdir.

## Ədəbiyyat

1. Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**.** Bakı şəhəri, 15 noyabr 2018-ci il
2. Cahangirov M.C. Azərbaycan milli ədəbi dilinin təşəkkülü. Bakı: "Elm", 1978, 235s.
3. Quliveya Q. Nəsimi dilinin semantik xüsusiyyətləri. Bakı//Elm və həyat, 1987, №6, s.22-23
4. SeyidovY.M. Nəsiminin dili. Bakı: "Azərbaycan" nəşriyyatı, Bakı: 1996, 268s.
5. Seyidov Y.M. Nəsimi dilinə dair qeydlər // ADU-nun elmi əsərləri (Dil və ədəbiyyat seriyası), Bakı: 1973, №4, s.5-7
6.İnternet resursları: Hacıyeva A. Frazeologiya dilçiliyin ən gənc tədqiqat obyekti kimi. 2014, s.266-271 // http://www.filologiyameseleleri.net/pdf/j5-2014.pdf